Tarix və onun problemləri, № 2 2012

**BAYRAMOVA BIRCƏ ƏFQAN QIZI**
***BDU-nun Tarix fakültəsinin dissertantı***
***e-mail: birce_bayramova@hotmail.com***

# AZƏRBAYCAN ILƏ ABŞ ARASINDA MƏDƏNI ƏLAQƏLƏR (2001-2008-CI ILLƏR)

**Açar sözlər**: mədəni əlaqələr, memorandum, muzey,təhsil, beynəlxalq əməkdaşlıq.
**Ключевые слова**: культурные связи, мемораннлум, музей, образование, международное сотрудничество
**Key words**: cultural relations, memorandum, museum, education, international cooperation

Azərbaycan-ABŞ arasında mədəni əlaqələr 2000-ci illərdən sonra daha da inkişaf etməyə başladı.

2003-cü il avqustun 29-da ABŞ Konqresi ilə Azərbaycan Respublikasının Milli Məclisi arasında əlaqələr yaratmaq və onu inkişaf etdirmək məqsədilə Memorandum imzalandı [1]. Memorandumda qeyd edilirdi ki, regional sabitlik və təhlükəsizliyin qorunması üçün Azərbaycan və ABŞ arasında ikitərəfli münasibətlərin və əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətini, Xəzər regionunun, xüsusilə Xəzərin Azərbaycan sektorunun dünya bazarlarının alternativ sabit enerji ilə təminatı üçün əhəmiyyətli mənbə olmasını, nəzərə alaraq bəyan edilmiş məqsədlərə çatmaq üçün iki tərəf – Milli Məclis və Konqres birgə işçi qrupu çərçivəsində altı qrupun yaradılması qərarına gəldilər. Bu qruplar təhlükəsizlik və hərbi quruculuq, enerji və ətraf mühit, maliyyə və bank işi, təhsil, elm və texnologiya, kənd təsərrüfatı, insan hüquqları məsələləri ilə məşğul olmalıdır[2,326].

2005-ci ilin aprelindən Kürdəmir rayonunda fəaliyyət göstərən Regional Kitabxana Məlumat Mərkəzində 2006-cı ildə ingilis dili kursları açılmışdır. ABŞ səfirliyinin əməkdaşı xanım Min Liza ABŞ-da oxuduqları universitetin kitabxanaları ilə oxucuları tanış etmiş, hər iki ölkənin mədəniyyətilə bağlı filmlər nümayiş olunmuşdur [3,15-17].

2006-cı il iyunun 30-da Respublika Muzey Mərkəzində 2006-2007- ci illər üçün muzeylərarası beynəlxalq əməkdaşlıq Proqramı ilə əlaqədar mətbuat konfransında Nazirliyin şöbə müdiri A.Hüseynova Azərbaycanla Amerika arasında mədəni əməkdaşlıq əlaqələrinin ildən-ilə genişləndiyini və hər iki dövlətdə təşkil olunan mədəniyyət tədbirlərinin böyük əhəmiyyət kəsb etdiyini vurğulamışdır [4].

2006-cı ilin noyabrında ABŞ-ın Corctaun Universitetinin Beynəlxalq Mədəniyyətlər Mərkəzində Azərbaycan incəsənəti sərgisi açılmışdır. Vaşinqtondakı Azərbaycan Ticarət və Mədəniyyət Mərkəzi tərəfindən təşkil olunmuş sərgidə Birləşmiş Ştatlarda yaşayan rəssam azərbaycanlı Yavər Rzayev və Şahin Şıxəliyevin yağlı boyalarla işlənilmiş 20 tablosu nümayiş etdirilmişdir [5].

2006-cı il dekabrın 4-də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva ABŞ-a etdiyi səfəri çərçivəsində bir sıra görüşlər keçirmişdir. Mehriban xanım Əliyeva ABŞ Prezident Kitabxanası Fondunun prezidenti, ABŞ-ın milli təhlükəsizlik məsələləri üzrə sabiq müşaviri general Brent Skoukroftla görüş zamanı hər iki fond arasında əməkdaşlığın perspektivləri və birgə layihələrin keçeirilməsi məsələlərini müzakirə etmişdir. Bundan əlavə, Mehriban xanım Əliyeva Vaşinqtonun nüfuzli təhsil və tədqiqat mərkəzlərinin, universitetlərinin nümayəndələri ilə də görüşlər keçirmişdir. Görüşdə ABŞ-ın tanınmış alim və ictimai xadimləri, o cümlədən Syuzan Eyzenhauer, Frederik Star,

Svanta Kornel, Ancela Stend, Ceyms Beyker, Rob Sobhani, Roald Saqdeyev, Ariel Koen iştirak etmişlər. ABŞ-Azərbaycan münasibətlərinin inkişafını yaxından izləyən alimlər bu münasibətlərin dinamikasına yeni ahəng vermək üçün fikirlərini bildirmişlər [6].

Yenə 2007-ci ilin sentyabrın 29-da ABŞ-ın Kaliforniya ştatının İrvin Şəhər Şurasının dəvəti ilə Azərbaycan-Amerika Şurasının nümayəndələri "İrvine Global Village" adlı festivalda iştirak ediblər. Qeyd edək ki, hər il keçirilən və İrvin meriyası tərəfindən təşkil olunan festival şəhərin, eləcə də Kaliforniyanın müxtəlif mədəni fonunu təbliğ edir. Azərbaycan-Amerika Şurası üzvləri Cavid Hüseynov, Ülviyyə Nəsibova, Nərminə Məmmədova və Arzu Ağayeva tədbirdə iştirak edən çoxsaylı ziyarətçilərə Azərbaycanın mədəniyyəti, tarixi, ədəbiyyatı, coğrafiyası və iqtisadi potensialı, turizm sahələri barədə ətraflı məlumat vermişlər [7].

Azərbaycanın incəsənət xadimlərinin iki dövlət arasındakı həm mədəni, həm siyasi əlaqələrin inkişafında rolu da böyükdür. Buna bariz nümunə olaraq aşağıdakı faktı gətirmək olar: 2007-ci ilin fevralında Azərbaycanın əməkdar rəssamı, YUNESKO Rəssamlar Federasiyasının, Rusiya Rəssamlar İttifaqının və Almaniya Rəssamlar Birliyinin üzvü, "Dünya xalqlarının incəsənəti" Beynəlxalq Assosiasiyası mükafatının laureatı Əşrəf Heybətovun əsərlərindən biri Nyu-York muzeyinə verilmişdir. O, "Nyu-York, 11 sentyabr" adlı əsərində terrorizmi hiddətlə lənətləmişdir. Bu əsər Rusiyanın Bonndakı baş konsulu tərəfindən Nyu-York sakinlərinə hədiyyə edilmişdir [8].

2007-ci il noyabrın 14-də Bakıda Amerika Mərkəzində ABŞ səfirliyinin "Regional kitabxanaların inkişafı" proqramının yekunlaşması ilə bağlı tədbir keçirilmişdir. ABŞ səfirinin müavini Donald Lu demişdir ki, proqramda məqsəd region kitabxanalarının fəaliyyətini genişləndirmək və onları ictimai mərkəzlərə çevirməkdir. Layihə çərçivəsində Azərbaycan tərəfinə 55 min kitab hədiyyə olunmuşdur [9].

2008-ci ildə Vaşinqtonun meri Adrian Fenti mayın 28-ni ABŞ paytaxtında Azərbaycan Günü kimi elan etmişdir. Bu qərarı əks etdirən bəyannaməni merin xarici əlaqələr üzrə müavini Stefan Skott Azərbaycanın ABŞ-dakı səfirliyinin təşkil etdiyi bayram ziyafətində səfir Yaşar Əliyevə təqdim etmişdir. Ziyafət Vaşinqtonun mərkəzində yeni açılmış "Nyuseum" – Xəbər muzeyində təşkil olunmuşdur. Demokratiyanın əsas prinsiplərindən biri olan azad sözə ehtiram əlaməti olaraq tikilən bu binada Şərqin ilk demokratik cümhuriyyətinin 90 illiyinin qeyd edilməsi rəmzi məna daşımışdır [10].

Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyi münasibətilə 2008-ci il mayın 12-də ABŞ-ın Klivlend şəhərində Azərbaycan Mədəniyyət bağının açılışı olmuşdur. Klivlend Mədəniyyət bağının bir hissəsi olan bu layihənin təməli hələ 2003-cü ildə qoyulmuşdur. Klivlendin mərkəzi küçəsində yerləşən bu bağı ABŞ-da yaşayan həmyerlimiz, memar Xanlar Qasımovun müəllifi olduğu "Ocaq" abidəsi və mərmərdə həkk edilən "Azərbaycan - təxəyyülü alovlandırıb, ruhu isidən əbədi Odlar Yurdu" sözləri bəzəyir. Klivlendin əhalisi 80- yaxın etnik icmanı təmsil edir. Şəhərin belə zəngin demoqrafik müxtəlifliyini göstərmək məqsədilə yaradılan Klivlend Mədəniyyət bağları 36 xalqın mədəni irsini əhatə edir [11].

2008-ci ildə Amerika-Azərbaycan Şurası San-Fransiskoda Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyinə həsr olunmuş tədbir keçirmişdir [12]. Həmin il Kaliforniyadakı Ronald Reyqan Memorial Fondunda Ümummilli lider Heydər Əliyevin 85 illik yubileyi şərəfinə xatirə gecəsi keçirilmişdir.Tədbirdə baş konsul Elin Süleymanov və Beverli Hills Şəhər Şurasının üzvü Cimmi Delşad çıxış etmişlər [13].

Təhsil sahəsi də Azərbaycan-ABŞ humanitar-mədəni əlaqələrinin prioritet

sahələrindən biri olaraq qalmışdır. 2008-ci il iyunun 19-da Bakı şəhərində "Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş (24 may 2010-cu il tarixli 924 saylı sərəncamı)" imzalandı.Sazişdə Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti dostluq əlaqələrini davam etdirmək, qarşılıqlı maraq əsasında təhsil sahəsində əlaqələri inkişaf etdirmək arzusunda olaraq, aşağıdakıları nəzərdə tutmuşdur:

Azərbaycan və ABŞ vətəndaşları, həmçinin hər iki ölkənin dövlət və özəl təhsil, tədris və tədqiqat müəssisələri arasında yaxın əlaqələr yaratmaqla, tədris, təhsil və tədqiqat sahələrində əlaqə və mübadilələri həvəsləndirmək;Azərbaycan Respublikasının və ABŞ-ın müvafiq təhsil sisteminə və müvafiq qanun, qayda və prosedurlarına uyğun olaraq, hər iki ölkənin tələbələri, müəllimləri, alimləri, tədqiqatçıları, ekspertləri və təhsil müəssisələri arasında birbaşa əməkdaşlıq və mübadiləni təşviq etmək;Təbiət elmləri, mühəndislik, informasiya texnologiyaları, sosial, humanitar elmlər, incəsənət, kommunikasiya, biznesin idarə edilməsi, kənd təsərrüfatı və səhiyyə, Azərbaycan və ingilis dilləri və digər sahələr də daxil olmaqla, mühüm sahələr üzrə tələbə, alim və tədqiqatçıların daha geniş mübadiləsini təşviq etmək və birgə maliyyələşdirmək yolu ilə Fulbrayt proqramını genişləndirəcəklər. Azərbaycan Fulbrayt proqramını Azərbaycan tələbələrinin Xaricdə Təhsili üzrə Dövlət Proqramı vasitəsilə azərbaycanlı tələbələrin Amerika universitetlərində təhsil almasını dəstəkləmək; və s.

Adı çəkilən sazişlərə xüsusi diqqət yetirməyimiz təsadüfi deyildir: bu razılaşmaları bağlayan tərəflər – Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları 2001-2008-ci illər ərzində əməkdaşlıq sahəsində böyük uğurlara imza atmışlar [14].

## İSTIFADƏ OLUNMUŞ ƏDƏBIYYAT SIYAHISI

1. AR XİN Tarix- Arxiv İdarəsi "Azərbaycanın ABŞ-dakı Səfirliyinin 2003-ci i lüzrə illik hesabatı" qovluğu.
2. Azərbaycan Respublikasının Milli Məclisi ilə ABŞ konqresi arasında imzalanmış memorandum əlaqələrin inkişafına yeni səhifə açacaqdır //AR XİN Azərbaycanın xarici siyasəti/ sənədlər məcmuəsi 2003,I hissə Bakı, 2010,668 səh.
3. Əliyeva M.Sülh körpüsü// "Mədəni-maarif" jurnalı, Bakı, 2006, №7 səh15-17
4. Sevil. Xalçalarımız dünyanın diqqətini çəkir."Müsavat" qəz., Bakı, 2006, 1 iyul, №168
5. Akifqızı Ş.ABŞ-ın Corctaun Universitetində Azərbaycan incəsənəti sərgisi açılıb."Azərbaycan" qəz.,Bakı,2006, 1 dekabr, №269
6. AzərTac.Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın ABŞ-a işgüzar səfəri."Azərbaycan" qəz., Bakı, 2006, 7 dekabr, №274
7. Azərbaycan- Amerika Şurasının nümayəndələri " İrvine Global Village" festivalında iştirak edib. "Palitra" qəz., Bakı, 2007, 3 oktyabr, № 106
8. AzərTac. Azərbaycanlı rəssamın terrorizmi lənətləyən əsəri Nyu-York Muzeyinə verilir. "Azərbaycan" qəz.,Bakı,2007,22 fevral, № 39
9. AzərTac.ABŞ səfirliyi "Regional kitabxanaların inkişafı" proqramı çərçivəsində kitabxanalara 55 min kitab hədiyyə etmişdir. "Respublika" qəz., Bakı, 2007, 15 noyabr, № 257
10. Akifqızı Ş.Mayın 28-i Vaşinqtonda Azərbaycan Günü elan edilmişdir. " Azərbaycan" qəz.,Bakı, 2008,3 may, №117

11.Akifqızı Ş. ABŞ-ın Klivlend şəhərində Azərbaycan Mədəniyyət bağı açılmışdır. "Azərbaycan" qəz., Bakı, 2008, 14 may № 103
12.Kübra. ABŞ-da Xalq Cümhuriyyətinin 90 illik yubileyi qeyd olunub. "Səs" qəz., Bakı,2008, 28 may №95
13.Kaliforniyadakı Ronald Reyqan Memorial Fondunda ümummilli lider Heydər Əliyevin 85 illik yubileyi şərəfinə xatirə gecəsi keçirilmişdir. "Xalq" qəz., Bakı, 2008, 14 may
14.www.edu.gov.az

**БИРДЖА БАЙРАМОВА**
**Диссертант БГУ**
***e-mail: birce_bayramova@hotmail.com***

**Культурные связи между Азербайджанской Республикой и США (2001-2008гг)**

Культурные отношения между Азербайджанской Республикой и США в 2001-2008 гг. были расширены до уровня сотрудничество с музеями и библиотеками этих стран. В рамках этого сотрудничества были проведены ряд мероприятий и были подписаны меморандумы. Культурные отношения между двумя странами после 2006 года стали еще больше развиваться. В области образования были подписаны различного рода соглашения, что еще больше поспособствовало сближению этих стран.

**BIRCA BAYRAMOVA**
**Baku State University**
***e-mail: birce_bayramova@hotmail.com***

**Cultural relations between Azerbaijan Republic and USA in 2001-2008**

Cultural relations between Azerbaijan Republic and USA in 2001-2008 have been expanded to the level cooperation with museums and libraries of these countries. Within the limits of this cooperation have been spent a lot of actions and have been signed memorandums. Cultural relations between two countries after 2006 began to develop even more. In the sphere of education a lot of agreements have been signed, what promoted rapprochement of these countries.

***Rəyçilər: t.e.n. A.Ə.Rzayev, t.e.d. R.C.Süleymanov***
***BDU-nun Tarix fakültəsi Elmi Şurasının 05 mart 2012-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 07)***